*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (4) 2025*

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received:02.06.2025***
***Kabul tarihi |Accepted:13.07.2025***
***Yayın tarihi |Published:25.08.2025***

**Şahlar Şərifov**

***https://orcid.org/0000-0002-0395-5174***
*Associate Professor, PhD (History), Leading Researcher, Institute of History named after A.A. Bakikhanov, Azerbaijan National Academy of Sciences, Azerbaijan, shahlarsharifov@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Şərifov, Ş. (2025). Borçalı Bölgəsinin VII-X Əsrlər Tarixi Ərəbdilli Mənbələrdə. *Akademik Tarih ve Düşünce Dergisi*, *12* (4), 892-908.

# Borçalı Bölgəsinin VII-X Əsrlər Tarixi Ərəbdilli Mənbələrdə

***Xülasə***

*Qafqazın mərkəzində yerləşən Borçalı bölgəsi, e.ə. IV əsrdən etibarən türklərin məskunlaşdığı ərazilərdən biri olmuş, XI əsrdə Qafqazın Səlcuq türkləri tərəfindən fəthindən sonra isə Türk-İslam coğrafiyasına aid ərazilərdən birinə çevrilmişdir. Bu bölgənin türk-müsəlman tarixində müstəsna yeri vardır. Xəzər, Səlcuqlu, Azərbaycan Atabəyləri, Teymurilər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Osmanlı, Avşar və Qacar türklərinin hakimiyyəti altında olan Borçalı, öz varlığını qoruyub saxlaya bilmişdir. Müsəlmanlarla xristianlar arasında sərhəd rolunu oynayan Borçalı, tarix boyu bir çox müharibələrə və andlaşmalara şahidlik etmişdir. Eyni zamanda, türklərin sərhəd boyu etdikləri yürüşlər nəticəsində Qafqazın və Şərqi Anadolunun həm türkləşməsində, həm də islamlaşmasında mühüm rol oynamışdır. X əsrdən XV əsrə qədər Azərbaycan ərazilərində hakimlik etmiş Türk xanadanlıqları dövründə Borçalı ərazisi əsasən müxtəlif türk tayfalarının məskunlaşdığı ərazilərdən birinə çevrilmişdir. XI əsrdən etibarən davamlı olaraq Borçalıda davam edən türk hakimiyyəti, XIX əsrin əvvəllərində rus işğalı ilə sona çatmışdır. Məqalədə Qafqaz türkləri və İslam tarixinin mühüm bir hissəsi olan Borçalı bölgəsində VII-X əsrlərdə baş vermiş tarixi hadisələr mənbələr əsasında tədqiq edilmişdir.*

***Açar sözlər:*** *Qafqaz, Borçalı, Sultanlıq, Xanədanlıq, Türk, İslam, Gürcü*

# The History of the Borchali Region in the 7th–10th Centuries in Arabic Sources

***Abstract***

*Located in the heart of the Caucasus, the Borchali region has been one of the areas inhabited by Turks since the 4th century BCE and, after the Seljuk conquest of the Caucasus in the 11th century, became part of the Turkic-Islamic world. This region holds an exceptional place in the history of the Turkic-Muslim*

BY NC
Creative Commons Licence

*world. Having remained under the rule of the Khazars, Seljuks, Eldiguzids (Atabegs of Azerbaijan), Timurids, Qara Qoyunlu, Aq Qoyunlu, Safavids, Ottomans, Afsharids, and Qajars, Borchali managed to preserve its identity. Serving as a frontier between Muslims and Christians, Borchali witnessed numerous wars and treaties throughout history. At the same time, as a result of the Turkic expeditions along its borderlands, it played a key role in both the Turkification and the Islamization of the Caucasus and Eastern Anatolia. During the period of Turkic dynasties that ruled in the territories of Azerbaijan from the 10th to the 15th centuries, the Borchali area became one of the main regions of settlement for various Turkic tribes. From the 11th century onward, continuous Turkic domination in Borchali lasted until the early 19th century, when Russian occupation brought it to an end. This article examines, on the basis of primary sources, the historical events that took place in the Borchali region during the 7th–10th centuries, a period that constitutes an important part of the history of the Caucasian Turks and of Islam.*

***Keywords:*** *Caucasus, Borchali, sultanate, dynasty, Turkic, Islam, Georgian*

## Giriş

Türk dünyasının və türk millətinin mühüm bir parçası olan Borçalı, Osmanlı arxiv sənədlərində Borçalı tərəkəməsi və Qarapapaq kimi də qeyd edilir. Borçalı olaraq adlandırılan bölgə, Tiflisin cənubu ilə Qərbi Azərbaycanın (indiki Ermənistan) şimalı və Azərbaycanın şimal-qərbində yerləşir. Bu ərazi, orta əsrlərin sonlarına doğru sultanlıq statusu almışdır. Buraya səfər edən Osmanlı səyyahları, ərazidə yaşayan müxtəlif xalqlar haqqında məlumat verirlər. Bölgəyə səfər edən Avropa səyyahları buranı "Türk Gürgüstanı" olaraq qeyd etmişlər (Kırzıoğlu, 1972). Borçalı türkləri minilliklərdən bəri, bu ərazilərdə yaşamaqda davam edirlər. Hun, Bulqar, Xəzər, Peçeneq, Qıpçaq kimi türk tayfaları zaman-zaman Borçalıya yürüşlər edərək, bu ərazini ta qədimdən (e.ə. IV – b.e. XIII əsrləri) türklərin məskunlaşdığı ərazilərdən birinə çevirmişlər. X əsrdən başlayaraq bölgəyə müsəlman oğuz türklərinin yürüşləri başlamış, XI əsrdə isə Səlcuq türklərinin Qafqazı fəth etməsindən sonra burada türklərin sayı artmışdır. Səlcuq türklərinin Qafqazı fəth etməsi və oğuzların bu ərazilərdə yerləşməsi nəticəsində Borçalı bölgəsi tam mənası ilə müsəlman türk məmləkətlərindən birinə çevrilmişdir. Borçalı bölgəsində cərəyan edən bu tarixi proseslər eyni ilə Azərbaycanda da cərəyan edirdi. Çünki bu ərazi tarix boyu böyük Azərbaycanın ayrılmaz bir parçası olmuşdur. Borçalı türklərinin əksəriyyəti Səlcuqların Gürcüstanı tutmasından əvvəl, bir qismi isə onların Gürcüstanı fəth etməsindən sonra burada yerləşmişlər. Eyni zamanda Səlcuqlu türkləri ilə bacarmayan və türklərin hakimiyyətini qəbul etmək istəməyən gürcü çarlarının bölgəyə gətirdikləri döyüşkən Qıpçaqlar da bölgənin türkləşməsində və Qarapapaqların bu ərazilərdə məskunlaşmasında yaxından iştirak etmişlər.

## 1. İslamdan Qabaq Borçalı Bölgəsi

Gürcüstanın cənub-şərqində və Azərbaycana gedən yolun sağ və sol tərəfində yerləşən ərazi Borçalı olaraq adlanmaqdadır. Tiflisin cənub çıxışından başlayan Borçalı bölgəsinə Rustavi, Qardabani, Bolinisi, Dmanisi, Marneuli, Laqodexi, Tetri-Tskaro, Zalka və Sakareko məntəqələri daxildir. Borçalıdan əlavə Gürcüstanın Telavi, Kareli, Kaspi, Qori və Mtsxeta kimi bölgələrində də türk yaşayış məskənləri mövcuddur. Borçalının ən önəmli xüsusiyyətləri əhalisi haqqında dəqiq bir rəqəmin verilməməsi və əhalisinin türk və müsəlman olmasındadır. Təxmini hesablamalara görə əhalisinin 600 min nəfərdən artıq olduğu bildirilir (Şərifli, 1995; Albayrak, 2004). Borçalı Dağ Borçalısı, Aran Borçalısı və Bağ Borçalısı olaraq üç hissəyə ayrılır. Aran Borçalısı, Marneoli və ətrafını, Yağlıca düzənliyini, müasir Bala Muğanlı kəndinə qədər olan əraziləri; Bağ Borçalısı, Bala Muğanlıdan başlayaraq mərkəzi Bolnisi olmaqla Güvənc və ətrafını, Bala Dmanisinin aşağılarına qədər olan əraziləri; Dağ Borçalısı isə Bala Dmanisidən başlayaraq Başkeçid və ətrafından Şərqi Anadoluya qədər olan əraziləri əhatə etməkdədir. Gürcüstanın cənub-şərqində və Qərbi Azərbaycanın şimal-qərbində yerləşən torpaqların üçdə bir hissəsi xaric, qalan hissələr böyük dağlarla əhatə olunmuşdur. Bölgə ərazisində Kür, Xram, Alget, Debed, Maşaver və digər çaylar axır. Borçalının sahəsi ümumilikdə 6500 km$^2$-dir (Şərifli, 2006). Borçalı sözünün “barsil” sözü ilə əlaqəli olduğunu qeyd edirlər. “Barsil” sözü kök olaraq “boz qurd” mənasını verən “börü” və “pələng” anlamında istifadə edilən “bars” kəlməsi ilə əlaqəlidir. Türk mifologiyasında “dişi qurd” “börce, börcü” kimi təsvir edilir. Əslində, Borçalı sözünün kökü qədim türklər üçün çeviklik, cəsarət və zəhmət rəmzi olan, Tanrıdan güc alan börü, börce və ya börcü yəni “bozqurd” deməkdir (Şərifli, 1997). Tanrıya iman edən barsillər, Günəşə və qadın tanrılarına qurban verir, oda və suya sitayiş edərək Şaman inancını qəbul etmişlər. Ox atmağa, at minməyə həvəsli olan xalq toplu halda yaşamağa üstünlük vermişdir. Barsillilər süddən qımız hazırlayıb içir, ət və balığı suda qaynadıb yeyir, dələ və sincab dərisini sataraq ticarətlə məşğul olurdular (Şərifli, 1997). Qədim tədqiqatçıların oxşar adlarla qeyd etdikləri “barsil”lərin Sak dövləti, Xəzər xaqanlığı, Hun xaqanlığı və Sarmat ölkəsini təşkil edən boy və tayfalardan biri olduğu mənbələrdə vurğulanır. Salnamələrdə Xəzərlərlə Barsillər əkiz boylar olaraq qeyd olunur. Barsillərin bir hissəsi I Xosrov Ənuşirvan tərəfindən Azərbaycan ərazisində yerləşdirilmişdir. IV–V əsrlərdə Bələncər yaxınlığında yaşamış barsillər bulqarların bir qolu olmuşdur. Artamonov Ağacqala Bələncər–Barsiliya sakinlərinin barsillərə aid olduğunu yazır (Ağayev, 2017). Yāqūt əl-Həməvi və Dəst Oğlu kimi şəxslər Barçola, Barsol, Borsula kimi təsvir etdikləri bu tayfanı bulqarların bir qolu hesab etmişlər. Hunların, xəzərlərin və bulqarların bütövləşməsində barsillər hakim mövqeyə sahib

olmuşlar. Xəzər xaqanları nəsil baxımından özlərinə tay olan qohumları Barsil tayfasından olan xanımla evlənirdilər (Şərifli, 1997). Erkən orta əsr qaynaqlarında barsillərin adı ilə bağlı Bersil, Berzil, Barçilə, Bərsula, Basiliya, Barsiliya, Bərşiliyyə və Bərşəliyyə kimi ölkə adları qeyd olunur. Bəzilərinə görə Şimali Dağıstanda yerləşən bu ölkə, Başlı adlanan əraziyə uyğun gəlir. Barsiliyanın Şimali Dağıstanda yerləşdiyini qeyd edən tədqiqatçılar əsasən ərəbdilli müəlliflərdən olan əl-Bəlazurinin verdiyi məlumatlara istinad edirlər (Ağayev, 2017). Xəzərin şimal-qərbində yerləşən bu məmləkət, Bizans və İslam salnamələrində Barselye, Berzilye, Barışlı, Borşalya və Barçuli olaraq çəkilmiş, məmləkətin adı isə Barsilya olaraq qeyd edilmişdir. Buna görə də İtil bulqarlarının “Baraç”, Xəzər xaqanının məktublarında “Birsal” şəklində yazılanlar və Yāqūt əl-Həməvinin Arran bölgəsində bir yer olaraq “Bərşəliyyə”ni qeyd etməsi diqqət çəkir (Yāqūt al-Ḥamawī, 1965; al-Balādhurī, 1956; Şərifli, 1997). Digər ərəbdilli müəlliflərdən olan Zəkəriyyə əl-Qəzvini isə bu bölgəni “Börüçölü” olaraq qeyd edir (al-Qazwīnī, t.y.). Bu, Borçalı termininin həm tipik, həm də etimoloji mənada işlənməsini göstərir. Dərbənddən yuxarıda Bərşəliyyə adlı şəhərin adını çəkən əl-Bəlazuri, Alban yepiskopunun Varaçan bölgəsinə getdiyini qeyd edir (al-Balādhurī, 1956; Cəlaloğlu, 2010). Fəxrəddin Kırzıoğlu Xorenliyə istinadən Ərməniyə kralı Tridatın 310-cu ildə Sasani şahı II Şapurla döyüşündən bəhs edərkən, bu yerin Borçalı olduğunu qeyd edir (Kırzıoğlu, 1992). Ərəbdilli mənbələrdə İtil bulqarları ilə xəzərlərin mühüm qollarından biri olaraq “Bərsula” (əl-Bərşəliyyə) və ya “əl-Bərsul” adlanan bir tayfadan bəhs edilməkdədir (Yāqūt al-Ḥamawī, 1965; al-Balādhurī, 1956; Qudāma ibn Jaʿfar, 1981). İtil bulqarlarına aid edilən rəvayətlərdə “Baraç” və “Qıpçaq” tayfa adlarında “Boroçoğlu” şəklində qeyd olunan adlarında eyni qəbilənin adı olduğu bildirilir. Misir Məmlüklərinin bəziləri bu tayfaya aid edildiyi kimi, Diyarbəkr ətrafında Boroçoğlu tayfasına mənsub insanların yaşaması haqqında da məlumatlar vardır. Hal-hazırda bu tayfanın bir hissəsi Kür çayının sağ sahilində əvvəlki Qoqaren (Gürcüstan) ölkəsinin şərq tərəfində Borçalı adlandırılan ərazidə yaşamaqdadırlar. Borçoğlular olaraq adlandırılan bu tayfa Qafqazın cənubuna Xəzərlərin dövründə gəlmişdir. Borçalı və ətrafında məskunlaşan tayfalardan biri də kimmer və saklar olmuşdur. Qədim mənbələrdən və arxeoloji materiallardan əldə olunan məlumatlara görə, kimmerlər və saklar e.ə. VIII–VII əsrlərdə Qafqazın şimalından cənubuna gəlib, Urmiya gölü ətrafında, Kür və Araz çayının sahillərində xanədanlıq quraraq, eyni dövrdə Borçalı tərəflərində də məskunlaşmışlar (Şərifli, 1997). Qədim tarixçilər atlı və köçəri, ölülərini qiymətli əşyaları ilə birlikdə dəfn edən kimmerlərin prototürklərdən olduqlarını qeyd edirlər. E.ə. 680-ci ildə sakların Qafqaz keçidlərini aşaraq bu bölgələrə gəlişinə qədər, kimmerlər təxminən qırx il Kür–Araz və Çorox çayları ətrafında hakimiyyətdə olmuşlar

(Kırzıoğlu, 1994). E.ə. VII əsrdə şərq bölgələrinə doğru hərəkət edərək burada məskunlaşan saklar, müxtəlif tayfalara bölünürdülər:

- Albanlar və ya Alpanlar, əvvəlcə Dərbənd, Bakı və Şirvan ərazilərində məskunlaşmış, sonradan böyük əksəriyyəti Balkanlara köç etmiş saklar;
- Qarabağ və Gəncə tərəflərində məskunlaşan sakasinlər;
- Borçalı, Axıska, Ərdəhan ərazilərində məskunlaşan qaqarlar;
- Oltu, Narman, Yusufəli ərazilərində məskunlaşan tavlar;
- Arpaçay, Qars ərazilərində məskunlaşan pasianlar;
- Van gölünün cənubunda və Dəclə çayının şərqində məskunlaşan paktuklar;
- Hakkari və Zab çayı sahillərində məskunlaşan qarduklar (Cəlaloğlu, 2010).

Hal-hazırda Borçalı ərazisində və Azərbaycanın müxtəlif bölgələrində kimmer xalqlarının adları ilə əlaqədar olan “Kəmərli” və “Qəmərli” kəndləri mövcuddur. Sak tayfalarının adı isə Şəki (Saka) və Zaqatala (Sakatala) şəhərlərinin, eyni zamanda Tiflis şəhərinə bitişik Soğanlıq (Sakanlı) kəndinin adlarında davam etdirilməkdədir (Cəlaloğlu, 2010). Əvvəldə də qeyd etdiyimiz kimi Borçalı ərazisi ta qədimdən türk tayfalarının məskunlaşdığı ərazilərdən biri olmuşdur. Borçalı torpaqlarında yaşamış ən qədim etnik qruplardan biri də, Anadoluda hakim mövqeyə sahib olan Bun türkləri olmuşdur. Qıpçaq olaraq adlandırılan Bun türkləri bütpərəst qəbilələrdən hesab olunurlar. L. Mrovelinin verdiyi məlumata görə, e.ə. VI əsrdə Əhəməni dövlətinin (e.ə. 550–330) qurucusu II Kir (e.ə. 559–530) tərəfindən təzyiqlərə məruz qalan Bun türkləri, Xəzər dənizini keçərək Kür çayı ilə yuxarı qalxıb Msxetaya gəlmişlər. Msxetadan qərbə doğru hərəkət edərək qayalar üzərində özləri üçün bir istehkam yaratdıqları və buranı “Sarkinə” adlandırdıqları haqqında məlumatlar Gürcü mənbələrində də qeyd olunmaqdadır (Cəlaloğlu, 2010). Bun türklərinin hansı türk qrupunu təmsil etdikləri barədə tədqiqatçılar arasında fərqli fikirlər mövcuddur. Qafqaz tarixi ilə Orta Asiya tarixi ayrı-ayrı araşdırıldığından, yerli Qafqaz mənbələri ilə Çin salnamələri arasında bir bağlantının olmaması, Şərqdən gələn köçərilərin vəziyyətini şərh etməkdə böyük çətinliklər yaradır. İskit türklərini (skifləri) Qərbə sıxışdıran Çin Ti qrupları uzun müddət onların yaşadıqları ərazilərdə hakimlik etmişlər. E.ə. IV əsrdə Hun təzyiqləri nəticəsində qədim skiflərin ilk torpaqlarını işğal edən Ak Ti tayfalarından biri olan Bun türkləri ilk türk tayfası olaraq Qərbə doğru hərəkət etmişlər. Onlar skiflərin təqib etdikləri yollardan keçərək, Kür çayına qədər bütün Qafqazı tabe edə bilmişlər. E.ə. 320-ci ildə Makedoniyalı İsgəndər tərəfindən məğlub edilən Bun türkləri, Şimali Qafqazda və Xəzər dənizinin şimal və şərq hissələrində məskunlaşaraq, sonralar bu ərazilərə gələcək türk tayfaları üçün şərait yaratmışlar (Seyidov, 1983). Mənbələrdən əldə

etdiyimiz məlumatlara görə, sonrakı dövrlərdə fars ordusunun sərkərdəsini öldürən Bun türkləri, Əhəmənilərin üzərinə yürüş etmişlər. Antik dövr tədqiqatçıları Bun türklərini Əhəməni hökmdarı II Kirin başını kəsən Tomrisin övladlarından hesab edirlər (Cəlaloğlu, 2010).

*E.ə. IV əsrdə Het tayfalarını öz torpaqlarından çıxarmağa çalışan Makedoniyalı İsgəndər, ilk dəfə olaraq Sarkinə, Kaspi, Urbinisi və Odzraki şəhərlərində yaşayan döyüşkən və cəsarətli tayfalardan olan Bun türkləri ilə qarşılaşmışdır. Antik mənbələrə görə Bun türkləri, e.ə. VII əsrdə Ön Asiyaya axın edən işquzların – iç oğuzların xələfləridir (Cəlaloğlu, 2010; Kırzıoğlu, 1994). Borçalı ərazisində məskunlaşan türk tayfalarından biri də Xəzər türkləridir. Mənbələrdə də onların "şərqdən gələn türklər" olduqları qeyd olunur. Onlar oğuzlar, avarlar, sabirlər və bulqarlar kimi digər türk boyları ilə qohum boylardan hesab olunurlar. Əksər tədqiqatçılara görə Xəzər türkləri, türk tayfalarından olan başqırd və bulqar türkləri ilə qohum boylardan biri olmuşdur (Kevin, 2005). Rəvayətlərə görə Xəzərlər, imperator Mavrikinin (582–602) dövründə bulqarlar ilə birlikdə Barsilya adlanan Alan bölgəsinə gəlmişlər (Golden, 2006). Xəzərlər romalılarla dostluq şəraitində yaşamaq şərti ilə Mavrikidən özlərinə bir miqdar torpaq verməsini xahiş etmişlər. İmperator Mavriki də bu müraciəti müsbət qarşılayaraq Yuxarı və Aşağı Misia ilə I Anastasinin dövründən (491–518) avarların hücumuna məruz qalan Dacia bölgəsini avarlardan müdafiə etmək məqsədilə xəzərlərə vermişdir. Mənbələrdən də əldə etdiyimiz məlumatlara görə xəzərlər döyüşkən tayfa olmuşlar.

*Bəzi tədqiqatçılar xəzərlərin Sarmatya ölkəsinin ən ucqar nöqtəsi olan Barsilyadan gəlmiş xalq olduqlarını qeyd edirlər. Ərəbdilli müəlliflərdən olan əl-Bəlazuri və əl-Qudamə də fars şahının Türk və ya Xəzər xaqanı ilə görüşdüyü yerin Dərbəndin şimalındakı əl-Bərşəliyyə adlı yerin olduğunu bildirirlər (al-Balādhurī, 1956; Qudāma ibn Jaʿfar, 1981; al-Qazwīnī, t.y.; Artamanov, 2004). Əl-Bəlazuri, Sasani şahı Qubad və onun dövründə baş verən hadisələrdən bəhs etdikdən sonra oğlu I Ənuşirvan haqqında da məlumat verir. Bu məlumatlardan aydın olur ki, bu dövrdə xəzərlərlə sasanilər arasında müəyyən qədər dostluq münasibətləri olmuş, Xəzər xaqanı ilə Sasani şahı I Ənuşirvan əl-Bərşəliyyə adlı yerdə görüşmüşlər (al-Balādhurī, 2002; al-Qazwīnī, t.y.).

*Həm ad baxımından, həm də siyasi baxımdan barsillərlə sıx əlaqədə olan xəzərlər daim onlarla birlikdə hərəkət etmişlər. XVII əsrin alimlərindən olan əl-Kəlbi, Barsolu Xəzərin qardaşı olaraq qeyd edir (Artamanov, 2004). Tarixi qaynaqlara nəzər saldıqda xəzərlərin II əsrdə qəti şəkildə ortaya çıxdıqları məlum olur. Xəzərlərin 198-ci ildə barsillər ilə birlikdə Ərməniyə vilayətinə hücum etdikləri, III–IV əsrlərdə Ərməniyə vilayətində Sasanilərlə Bizans arasında cərəyan edən döyüşlərdə birincilərin tərəfində yer alaraq Bizansa qarşı vuruşduqları qaynaqlarda öz əksini tapmaqdadır. Bununla belə, Sasanilərin IV əsrdə Ərməniyə vilayətini

işğal etməsi, qonşu əraziləri talan etməsi xəzərlərin, Bizansın yanında yer alaraq Sasani imperiyasına qarşı vuruşmasına səbəb olmuşdur (Muella, 2002).

## 2. İslamın Gəlişindən Sonra Borçalı Bölgəsi

Bildiyimiz kimi, İslam peyğəmbəri Həzrət Məhəmmədin vəfatından sonra hakimiyyətə gələn Raşidi xəlifələri dövründə (632–661-ci illər) İslam fəthləri geniş vüsət almışdır. Xəlifə Əbu Bəkrin dövründə (632–634) başlayan fəthlər, xəlifə Ömər ibn Xəttabın (634–644) və xəlifə Osman ibn Əfvanın (644–656) dövründə daha da güclənmişdir. Nəticədə Sasanilərin və Bizansın əlində olan bir çox ərazilər yeni qurulmuş Ərəb Xilafətinə tabe edilmişdir. Əldə edilən qalibiyyətlər nəticəsində ərəblər Azərbaycan sərhəddinə yaxınlaşmışlar. 639-cu ildə azərbaycanlılar ilk dəfə olaraq ərəblərlə qarşılaşmışlar. Bu qarşılaşmada ərəb ordusuna Hüzeyfə ibn əl-Yəman, azərbaycanlılara isə İsfəndiyar ibn Fərruxzad əl-Azəri başçılıq etmişdir. Ərdəbil yaxınlığında baş verən döyüşdə qalib gələn ərəblər İsfəndiyar əl-Azərini əsir götürmüş, onun əsir düşməsindən sonra mübarizəni qardaşı Bəhram əl-Azəri davam etdirsə də, sonda o da məğlub olmuşdur. Onun məğlub olmasından sonra ərəblərlə azərbaycanlılar arasında müqavilə bağlanmışdır. İki tərəf arasında bağlanan müqaviləyə görə yerli əhali ərəblərə tabe olmalı, qeyd olunan vergini vaxtında ödəməli, bu ərazilərdə olan ərəbləri (ərəb əsgərlərini) bir gün evlərində saxlamağa borclu idilər. Buna qarşılıq olaraq ərəblər də yerli əhalinin dini ayinlərinə, adət və ənənələrinə toxunmayacaqdılar (al-Balādhurī, 1987; Taberi, 1970; al-Balādhurī, 1866; Şərifov, 2022). Bəzi tədqiqatçılar qeyd etdiyimiz bu hadisələrin Bükeyr ibn Abdullahla Utbə ibn Fərqədin valilikləri dövründə baş verdiyini bildirirlər (Vəlixanlı, 1993; Paşazadə, 1991). Azərbaycan da daxil olmaqla bütün Cənubi Qafqazın Xilafətə tabe edilməsi xəlifə Osman ibn Əfvanın dövrünə (644–656) təsadüf edir. Təbii ki, bu ərazilər sırasında Azərbaycanın tarixi torpaqlarından olan Borçalı mahalı da var idi (İpek, 2016). Azərbaycanın qədim şəhərlərindən olan Naxçıvanın fəthindən sonra Həbib ibn Məsləmə, məşhur ərəb sərkərdələrindən olan Salman ibn Rəbiəni Arrana göndərdi. Naxçıvandan çıxaraq Biçənək keçidi vasitəsilə Araz çayından şərqə doğru hərəkət edən (Bünyadov, 1989) Salman ibn Rəbiə və ordusu Arranın əsas şəhərlərini ələ keçirdi (al-Balādhurī, 1866; Şərifov, 2022; Şərifov, 2016). Salman ibn Rəbiənin rəhbərlik etdiyi ərəb ordusu öncə Azərbaycanın şəhərlərindən olan Beyləqanı ələ keçirərək əhali ilə vergi müqabilində müqavilə bağladı (al-Balādhurī, 1866). Daha sonra Arranın mərkəzi şəhəri olan Bərdəyə yürüş edən Salman, oradakı əhali ilə də Beyləqan əhalisi ilə bağlanan müqavilənin şərtləri əsasında razılaşma əldə etmişdi (Şərifov, 2022). Bərdənin fəthindən sonra Şəmkiri ələ keçirən Salman ibn Rəbiə şərq istiqamətində hərəkət edərək Kür və Arazın qovuşduğu yerdən Kürü keçib Qəbələ, Şəki, Şabran və Şirvanı da Xilafətə tabe etmişdir (al-

Balādhurī, 1987). Həbib ibn Məsləmənin rəhbərlik etdiyi ərəb ordusu isə qərbə, əl-Curzan istiqamətində yürüşə başlamışdır (Mustafa, 2019; Asem el-Kufi, 1991; al-Balādhurī, 1987; Şərifov, 2022). Curzan batrikinin elçisi gəldikdən sonra Tiflisə gələn Həbib ibn Məsləmə ilə əhali arasında müqavilə bağlanmışdır. Əl-Bəlazuri müqavilənin mətnini belə qeyd edir:

*"Rəhmli Allahın adıyla. Bu fərman ərəb sərkərdəsi Həbib ibn Məsləmə tərəfindən Tiflis əhalisinə, Mancəlis və Qırmızı Curzandan gələnlərə ona görə verilir ki, onların şəxsi təhlükəsizliyi, kilsələri və monastırlarının təhlükəsizliyi təmin olunacaq, ibadətlərinə və dini azadlıqlarına zəmanət veriləcəkdir. Bu vəziyyətdə onlar tabe olmalı, ailənin hər bir fərdi üçün cizyə vergisi olaraq bir dinar ödəməli idilər..."* (Mustafa, 2019, s. 66; al-Balādhurī, 1987, s. 283-284; Şərifov, 2022, s. 210; Şərifov, 2019, s. 1097-1111). Bütün bu hadisələr və bağlanan əhdnamələr nəticəsində xəlifə Osmanın xilafətinin sonlarına doğru, 653-cü ildə Cənubi Qafqazın bir çox əraziləri Xilafətə tabe edilmişdir. Qeyd etdiyimiz hadisələr və ərəblərlə yerli əhali arasında bağlanan müqavilələrin şərtləri bir daha sübut edir ki, Raşidi xəlifələri dövründə tabe edilən ərazilərdə İslam dini qılınc gücünə yayılmamışdır. Bunu xəlifə Əbu Bəkrin ordunu yola salarkən baş sərkərdəyə verdiyi tapşırıqlar da sübut edir (Hasan, 1987). Eyni zamanda Bizans–Sasani müharibələrindən, Xəzərlərin və digər şimal tayfalarının hücumlarından əziyyət çəkən insanlar da müsəlman ərəblərə xilaskar kimi baxır, yeni din olan İslamı qəbul etməkdə çətinlik çəkmirdilər. Raşidi xəlifələrindən sonra hakimiyyətə gələn Əməvi sülaləsi dövründə hakimiyyət uğrunda gedən müharibələr zamanı ərəblərin Borçalıda nüfuzu zəifləsə də, bu əhalinin İslamı tərk etməsinə zəmin yaratmamış, İslam dini yenə də burada yayılmışdır.

Cənubi Qafqazın, xüsusilə Borçalı torpaqlarının Xilafətə tabe edilməsi Əməvi xəlifəsi Əbdülməlik ibn Mərvanın (685–705) dövründə mümkün olmuşdur. VII əsrin sonlarına doğru artıq ərəb orduları İberiyanın (Gürcüstan) qərb torpaqlarını da özlərinə tabe etmişlər. Bizans hakimiyyətinə qarşı üsyan edən Lazika patriki Sergeyin ərəblərə sığınması, ərəb qarnizonlarının Qərbi Gürcüstanın şəhər və qalalarına yerləşdirilməsinə səbəb olmuşdur (Askerov, 2020). Əməvi xəlifəsi II Yezid ibn Əbdülməlikin (720–724) dövründə, 720-ci ildə şimal əmirliyinə təyin edilən Cərrah ibn Abdullah Tiflis və ətraf ərazilərlə müqaviləni yeniləmiş, nəticədə əhalidən cizyə ilə bərabər xərac alınmağa başlanmışdır (Al-Balādhurī,, 1987; Şərifov, 2022). Ərəblər Cənubi Qafqazda tam möhkəmləndikdən sonra Tiflis və ətraf ərazilərin idarəsini əmirə həvalə etdilər. Xəlifənin təyin etdiyi əmirin qərargahı Tiflis şəhərində yerləşirdi. Təyin edilən əmir həm ordu başçısı, həm də hakim vəzifəsini icra edirdi. Ərazidə mövcud olan müsəlman idarəsi dəftərxanasına "amil", "hisbə" təşkilatına mühtəsib və ya vəliyyül-hisbe adlanan şəxslər nəzarət edirdi. Onlar dini işlərlə bərabər şəhərin təmir-bərpasına və borcların ödənməsinə də cavabdeh idilər. "Rəis" ünvanı ilə tanınan şəxs isə Tiflis müsəlmanlarının təmsilçisi olaraq

problemli məsələlərin həllində yaxından iştirak edirdi. İslamın yayılması və ərəb hakimiyyətinin güclənməsi nəticəsində artıq VIII əsrdə Tiflisdə hər sahədə müsəlmanlar üstünlük təşkil edirdilər (Askerov, 2020). Müsəlman tarixçilərindən fərqli olaraq gürcü tarixçiləri Tiflis əmirliyinin 730-cu illərdə qurulduğunu qeyd edirlər. Əmirliyə indiki Gürcüstanın şərq bölgəsi daxil idi. Sonralar Borçalı mahalı və Şida-Kartli bölgəsinin torpaqları da əmirliyə daxil edilmişdir. Gürcü tarixçilərinin də qeyd etdiyi kimi, Tiflis əmirliyinin bu şəkildə birləşməsi IX əsrin əvvəllərinə qədər Şərqi Gürcüstanın sabitliyinə və inkişafına şərait yaratmışdır.

Tiflis əmirliyinin şimal sərhəddi Diqomi düzənliyinə, cənub sərhəddi Samşivildiyə, qərb sərhəddi Ərvivan dağlarına, şərq sərhədi isə Kür çayına qədər uzanırdı. Kür çayının şərqində yerləşən İsani qalası, Rustavi şəhəri və Borçalının şimal-qərbində yerləşən Dmanisi kimi iri şəhərlər də Tiflis əmirliyinin ərazisinə daxil idi. X əsrin əvvəllərində Dmanisi müvəqqəti olaraq David tərəfindən işğal edilsə də, qısa müddət sonra yenidən Tiflis əmirliyinin sərhədlərinə birləşdirilmişdi. Sonralar Dmanisi, Rustavi və Hunan bölgələri müstəqil əmirliyə çevrilmişdilər (Askerov, 2020). O dövrdə Tiflis Cənubi Qafqazın məşhur ticarət mərkəzlərindən biri hesab olunurdu. Dünyanın müxtəlif bölgələrindən gələn tacirlərdən alınan vergilər əmirliyin xəzinəsinə toplanırdı. Ticarətdən toplanan vergilərə "müşrif" adlanan məmurlar nəzarət edirdi. Torpaqların əksəriyyətinin dövlətə məxsus olmasına baxmayaraq, vəqf torpaqları da mövcud idi. Məhkəmə işlərinə isə digər müsəlman şəhərlərində olduğu kimi Tiflis qazısı nəzarət edirdi.

Ərəbdilli müəlliflərdən olan əl-Yəqubiyə görə, Curzanın ilk müstəqil əmiri İsmayıl ibn Şüeyb olmuşdur (Yakubi, t.y.). 809-cu ildə Abbasi xəlifəsi təyin edilən əl-Əmin (809–813), dərhal xilafətə qarşı mübarizə aparan Tiflis əmirinin üzərinə Ərməniyə valisi Useyd ibn Yezidi göndərərək onu məğlub etmişdir. Bu məğlubiyyətdən sonra Tiflis əmiri yenidən Xilafətə öz itaətini bildirmişdir. İsmayıl ibn Şüeyb 813-cü ilə qədər vali olaraq Tiflisi idarə etmişdir. 813-cü ildə xəlifə Əmini devirərək hakimiyyətə gələn qardaşı əl-Məmun (813–833), İsmayıl ibn Şüeybin yerinə əmir olaraq Məhəmməd ibn Əttabı təyin etmişdir (Yakubi, t.y.). Lakin Babək əl-Xürrəmidin Xilafətə qarşı mübarizə aparmasından istifadə edən Məhəmməd ibn Əttab da, 829-cu ildə öz müstəqilliyini elan etmişdir. Xəlifənin Cənubi Qafqaz valisi Abdullaha qalib gələn Məhəmməd ibn Əttab, Tiflisi müstəqil şəkildə idarə edirdi (Yakubi, t.y.). Tiflis əmirliyini yenidən Xilafətə tabe etmək istəyən xəlifə əl-Məmun, Şeybanilər nəslindən olan, Azərbaycan Şirvanşahlar dövlətinin qurucusu Xalid ibn Yezidi Cənubi Qafqaza əmir olaraq təyin etmişdir (Yakubi, t.y.). Əmir təyin edildikdən sonra Borçalıya gələn Xalid ibn Yezid, erməni və gürcü iğtişaşlarına son qoyaraq onları itaət altına almışdır. Daha sonra Əli ibn Şüeybi Tiflis əmiri

təyin edərək Xilafətin Azərbaycandakı mərkəzi şəhəri olan Bərdəyə qayıtmışdır (Bünyadov, 2007; Mustafa, 2019). Əli ibn Şüeybin və qardaşı oğlu İshaq ibn İsmayıl ibn Şüeybin əmirlikləri dövründə (829–853) Tiflis və ətrafı inkişaf etmişdir. 23 il hakimiyyətdə olan İshaq ibn İsmayıl demək olar ki, Tiflis və onun ətraf ərazilərini müstəqil şəkildə idarə etmişdir. Onu təqib edən Xalid ibn Yezid istəyinə nail olmadan vəfat etmişdir (Yakubi, t.y.). 842-ci ildə Xalid ibn Yezidin vəfatından sonra oğlu Məhəmməd ibn Xalid Tiflis əmiri təyin edilmişdir. İshaq ibn İsmayılı və onun müttəfiqlərini məğlub edərək Tiflis və ətraf əraziləri Xilafətə yenidən tabe etmək istəyən Məhəmməd, vəzifəsinin öhdəsindən gələ bilməmişdir. 847-ci ildə Abbasi xəlifəsi təyin edilən əl-Mütəvəkkil Cənubi Qafqazı və Tiflis əmirliyini Xilafətə tabe etmək üçün bu ərazilərə Buğa əl-Kəbiri göndərmişdir. Bu ərazilərdə üsyançılara qarşı mübarizəyə başlayan Buğa əl-Kəbir, İshaq ibn İsmayılı və müttəfiqlərini məğlub edərək bölgəni yenidən Xilafətə tabe etmişdir. Hətta bu mübarizə nəticəsində məğlub edilən İshaq ibn İsmayıl öldürülmüşdür (Yakubi, t.y.). Bu ərazilərdə asayişin bərpa olunmasından sonra Tiflis əmiri olaraq Şeybanilər sülaləsinin nümayəndəsi Məhəmməd ibn Xalid (853–870) təyin edilmişdir. Xəlifə Mötəmidin dövründə (870–892) bu sülalə hakimiyyətdən götürülmüş, 870-ci ildə Məhəmməd ibn Xalidi əmir olaraq İsa ibn Şeyx əş-Şeybani əvəz etmişdir. Bu dövrdə Tiflis əmirləri eyni zamanda Cənubi Qafqaz valiləri də hesab olunurdular. 878-ci ildə Məhəmməd ibn Xalid yenidən xəlifə Mötəmid tərəfindən Tiflis və ətraf ərazilərin əmiri təyin edilmişdir. Vali və ya əmirlərin tez-tez dəyişməsi isə bu ərazilərdə Xilafətin nüfuzunun azalmasını sübut edən amillərdən biridir.

IX əsrin 80-ci illərində Tiflis əmirliyinin idarəsini Cəfərilər sülaləsi ələ almış və bununla da Borçalı da daxil olmaqla bu ərazilərdə Cəfərilər sülaləsinin 200 illik hakimiyyəti başlamışdır. Hunan, Rustavi və Dmanisi əmirlikləri də Cəfərilər sülaləsinə mənsub hakimlər tərəfindən idarə olunurdu (Askerov, 2020). Borçalı bölgəsi ilə yanaşı ətraf ərazilərdə hakimlik etmiş sülalərdən biri də türk əsilli Sacilər sülaləsi olmuşdur. Onlar həmçinin 879–941-ci illərdə bütöv Azərbaycanı da müstəqil şəkildə idarə etmişlər. Bildiyimiz kimi, xəlifə Harun ər-Rəşidin (786–809) hakimiyyətinin sonlarına doğru Abbasi hakimiyyətində türk əsilli şəxslərin nüfuzu güclənməyə başlamışdır. Bu, sonralar xüsusilə xəlifə əl-Məmun və xəlifə Mötəsim dövrlərində özünü qabarıq şəkildə göstərmişdir. Hətta ordu başçısı olan türk əsilli sərkərdələr öz nüfuzlarından istifadə edib xəlifəni belə hakimiyyətdən salmağı bacarmışlar. Sarayda böyük hörmətə sahib olan türk sərkərdələrinə ən önəmli işlər tapşırılırdı. Bu sərkərdələrdən biri də Sacilər sülaləsinin lideri Əbu Sac Divdad olmuşdur. Məkkə yolunun rəisi olan Əbu Sac Divdad, eyni zamanda Əhvaz, Kufə və Mədain şəhərlərinin hakimi olmuşdur (Şərifli, 2015). Dövlətin əsası Sacilər sülaləsinin lideri Əbu Sac Divdad ibn Yusif ibn Divdad tərəfindən qoyulmuşdur. Əbu Sac Divdad həm Xilafət daxilində baş verən etirazlara, həm də Bizansla aparılan

müharibələrdə ərəb orduları ilə birlikdə düşmən tərəfə qarşı mübarizə aparmışdır. Oğulları Məhəmməd və Yusif də Abbasi Xilafətində böyük nüfuza malik olan sərkərdələrdən olmuşlar. Bu sülalə haqqında ilk məlumat verən şəxs ərəbdilli müəlliflərdən olan ət-Tabəri olmuşdur. O, Babəkə qarşı vuruşan sərkərdələrdən bəhs edərkən, sülalənin lideri Əbu Sac Divdadın da adını çəkir (Taberi, t.y.; Ağayev, 2014). 879-cu ildə Əbu Sacın vəfatından sonra övladları Məhəmməd və Yusifin dövründə nüfuzu artan Sacilər sülaləsi müstəqil dövlətə çevrilmişdir. IX əsrin sonlarına doğru Məhəmməd ibn Əbu Sacın adına sikkələr kəsilmişdir ki, bu da Sacilərin müstəqil bir dövlət olduğunu sübut edən amillərdən biridir. Tarixi mənbələrə və arxeoloji məlumatlara görə Sacilər dövləti IX əsrin sonu – X əsrin birinci yarısında Azərbaycan coğrafiyasında hökmranlıq edən ilk müsəlman türk xanədanı olmuşdur. Sacilər dövlətinin sərhədləri şimalda Dərbənd və Tiflisdən, qərbdə Ani və Van gölü ətrafından keçərək cənubda Zəncan şəhərinə qədər uzanırdı (İbn Havqel, 1967; İstexri, 1381). Bir sözlə, IX əsrin sonu – X əsrin əvvəllərində Ərəb Xilafətinə qarşı mübarizə aparan və Azərbaycan torpaqlarında yeni dövlətin əsasını qoyan Sacilər bölgənin türkləşməsində böyük rol oynamışlar. Bu sülalənin türk mənşəli olması həm Qərb, həm də ərəbdilli müəlliflər tərəfindən təsdiqlənir. Mənbələrdə Sacilərin Orta Asiyanın "Usruşana" bölgəsindən gəldiyi qeyd olunur. Ərəbdilli müəlliflərdən olan İbn Xordadbehə görə, bu bölgədə hakimlik edən rəhbərlər Afşin ləqəbindən istifadə edirdilər (Şərifli, 2015). V. Bartold da "Moğol istilasına qədər Türkistan" əsərində Səmərqənd və Xocənd vilayətləri arasındakı bölgənin Usruşanaya daxil olduğunu yazır (Bartold, 1990). Azərbaycanda müstəqil dövlət qurmağı bacaran Məhəmməd ibn Əbu Sac da "Afşin" ləqəbini daşıyırdı. Hətta onun 898-ci ildə Bərdə şəhərində kəsdirdiyi sikkənin üzərində adı yox, ləqəbi olan Afşin yazılmışdır. Məhəmməd ibn Əbu Sacın hökmdar olaraq "Afşin" ləqəbindən istifadə etməsi də, onun Orta Asiya mənşəli türklərdən olduğunu sübut edir. Sacilər dövləti qurulduqdan sonra bu dövlət yeni torpaqlar fəth etməklə yanaşı yeni müttəfiqlər də qazanmağa çalışırdı. Sacilərin ən nüfuzlu hökmdarları Əbu Sac Divdadın oğulları Məhəmməd ibn Əbu Sac və Yusif ibn Əbu Sac olmuşlar. Uzun müddət hakimiyyətdə olan Yusif ibn Əbu Sacın dövründə dövlət xeyli güclənmiş, gürcü və erməni hakimləri də Sacilər dövlətinə tabe edilmişdir.

892-ci ildə xəlifə əl-Mötəmidin (870–892) vəfatından sonra Xilafət daxilində baş verən qarışıqlıqdan istifadə edən I Sumbat, Sacilərin tabeliyində olan şimal torpaqlarını işğal etmişdir. Buna cavab olaraq 896-cı ildə Ərməniyəyə yürüş edən Məhəmməd ibn Sac bu ərazilərdə nəzarəti yenidən ələ keçirmişdir. Daha sonra İberiyaya yürüş edən Məhəmməd ibn Əbu Sac, Tiflis və ətraf əraziləri də Sacilər dövlətinin torpaqlarına qatmışdır (Şərifli, 2015). Sacilər

ermənilərə və gürcülərə qarşı daha çox Qars, Taşir, Tiflis və Kür sahillərində mübarizə aparmışlar. Bu isə Sacilərlə ermənilər və gürcülər arasında mübarizənin Borçalı və onun ətrafında getdiyini göstərir. Tarixi mənbələrdə qeyd olunan mübarizə və döyüş yerləri bütövlükdə bugünkü Borçalının yerləşdiyi coğrafi bölgəni təşkil edir. Borçalı torpaqları Azərbaycanın ucqar bölgəsində yerləşdiyi üçün davamlı olaraq gürcülərin və ermənilərin təzyiqinə məruz qalmışdır. Bununla əlaqədar olaraq Yusif ibn Əbu Sac bölgədəki müsəlman türkləri erməni və gürcülərin zülmündən xilas etmək üçün onların üzərinə səfərlər etmişdir. Etdiyi səfərlərdə işğalçı dəstələri məğlub edən Yusif, onları vergi verməyə də məcbur etmişdir.

901-ci ildə Məhəmməd ibn Əbu Sacın vəfatından sonra Azərbaycan torpaqlarına hücum edən I Sumbat, Borçalı və ətrafında yaşayan müsəlmanlara zülm etmişdir. Məhəmməd ibn Əbu Sacdan sonra oğlu Divdadı devirən Yusif ibn Əbu Sac, Ərməniyəni yenidən Sacilərə tabe etmək üçün əvvəlcə Beyləqana gəlmiş, daha sonra sürətlə Qarabağı keçərək işğalçı dəstənin yerləşdiyi Dağ Borçalısındakı Təşrətəpəyə gəlmişdir. Bundan xəbər tutan I Sumbat, Taşirə doğru uzanan dağ keçidlərində pusqular qurmuşdu. Onun hiyləsini anlayan Yusif dağ keçidləri ilə deyil, qərbdəki düzənliklərdən keçərək əvvəlcə Şirəkə, daha sonra isə Dəbilə getmişdir. Burada barışıq əldə edildikdən sonra Yusif ibn Əbu Sac paytaxt Marağaya qayıtmışdır (Mustafa, 2019).

907-ci ildə Xilafətə tabe olmaqdan imtina edən Yusif ibn Əbu Sac, hətta xərac verməyi də dayandırmışdı. Bu da yenidən Azərbaycanın cənub sərhədlərində müharibə təhlükəsinin yaranmasına gətirib çıxarmışdır. Yusif ibn Əbu Sacın Xilafətə qarşı mübarizə aparmasından istifadə edən I Sumbat, Bizans imperatoru ilə ittifaqa girərək Borçalıya hücum etmişdir. Eyni zamanda Sacilərə qarşı təzyiqləri artırmağa çalışan xəlifə Müqtədir (908–932), Azərbaycanla qonşu olan hakimlərə də məktublar yazaraq Yusif ibn Əbu Saca qarşı mübarizə aparmağı əmr etmişdir.

Xilafətlə olan problemi danışıqlar yolu ilə həll edən Yusif ibn Əbu Sac, I Sumbatı cəzalandırmaq üçün qərbə səfərlər etsə də onu ələ keçirə bilməmişdir. Çünki o, Abxaziyaya qaçmışdı. Zəngəzur və Dəbildən keçən Yusif ibn Əbu Sac, Borçalıda dincəldikdən sonra yenidən I Sumbatı təqib etməyə başlamışdır. 908-ci ildə Niğ adlı məntəqədə I Sumbatı və ona yardıma gələn Bizans ordusunu məğlub edən Yusif ibn Əbu Sac, onun idarə etdiyi torpaqları nəzarətə götürmüşdür. 915-ci ildə I Sumbat, Yusif ibn Əbu Sacın əmri ilə Dəbildə dar ağacından asılmışdır (Mustafa, 2019). Daha sonra Arsurini nəslindən olan Qağiki bu vilayətə başçı təyin edən Yusif ibn Əbu Sac, Xəzər sahillərindən Azərbaycana daxil olmağa çalışan rus dəstələrini də məğlub etmişdir. Yusif ibn Əbu Sacın ruslara qarşı vuruşmasından istifadə edən I Sumbatın qardaşı Aşot, Borçalının bir hissəsini, eləcə də Tiflis və Ağstafa bölgəsini ələ keçirərək müsəlmanlara zülm etmişdir. Bu hücumda Qağik və Bizans imperatoru da Aşota kömək

etmişdir (Askerov, 2020). 912-ci ildə Yusif ibn Əbu Sacın hər il Xilafətə verdiyi yüz iyirmi min dinar xəracı dayandırması, Xilafətlə Sacilər arasında müharibəyə səbəb olmuşdur. 918-ci ildə məşhur sərkərdələrdən olan Xaqan ibn Müflihin rəhbərlik etdiyi Xilafət ordusunu məğlub edən Yusif Reyə qayıtmışdır. Bundan narahat olan xəlifə, 919-cu ildə Munisi-Müzəffərin başçılıq etdiyi Xilafət ordusunu Yusifin üzərinə göndərmişdir. Lakin bu döyüşdə də Xilafət ordusu məğlub edilmişdir. Məğlubiyyətlə barışmayan Munis, həmin ilin səfər ayında Ərdəbil yaxınlığında baş verən döyüşdə Yusif ibn Əbu Sacın ordusunu məğlub edərək, özünü də əsir kimi Xilafətin paytaxtı Bağdada gətirmişdir. O, üç il (919–922) xəlifənin zindanında saxlanılmışdır (Şərifov, 2017). Bu müddət ərzində Yusifin qulamlarından olan Səbuk əl-Fariqi Azərbaycanda hakimiyyəti ələ alaraq onun başladığı mübarizəni davam etdirmişdi. Hətta Munisin göndərdiyi ordu da Səbuk tərəfindən məğlub edilmişdi. Xəlifə əl-Müqtədir Səbuku tabe olmağa çağırdıqda, o, Yusif azad edilməyincə təslim olmayacağını bildirmişdi. Sonda Səbukun istəyini qəbul edən xəlifə əl-Müqtədir 922-ci ildə Yusif ibn Əbu Sacı həbsdən azad edərək Azərbaycan, Ərməniyə, Rey, Zəncan və Qəzvinin valisi təyin etmişdi (Şərifov, 2017). Sacilər sülaləsinin süqutundan sonra onları hakimiyyətdə Salarilər əvəz etmişdir. Azərbaycanın qərb torpaqlarının təhlükəsizliyini təmin etməyə çalışan Salarilər, Tiflis əmirliyi ilə dostluq münasibətlərini davam etdirmişlər. Salarilərdən sonra hakimiyyətə gələn Şəddadilər də Tiflis əmirliyinin ən yaxın müttəfiqi olmuşlar (Mahmudov, 2007). Şəddadilər 951-ci ildə Dəbil əmirliyini, 971-ci ildə isə Azərbaycanın qədim şəhərlərindən olan Gəncədə Şəddadilər dövlətinin əsasını qoymuşlar. Gəncə, Bərdə və Şəmkir kimi mərkəzi şəhərləri olan Şəddadilər dövləti, əsasən Araz və Kür çayları arasındakı Arranı əhatə edirdi. Şəddadilər dövrünün ən güclü mərhələsi I Fəzl ibn Məhəmmədin dövrünə təsadüf edir. İberiya hökmdarı Baqratla apardığı müharibələr nəticəsində Dağ Borçalısını (Taşiri) Şəddadi torpaqlarına tabe etmişdir. 1027-ci ildə Şəmkir şəhərini mühasirəyə alan Abxaz hakimi Baqratı yenidən məğlub edən I Fəzl, onun on min əsgərini də məhv etmişdir (Şərifli, 2015). Hakimiyyətdə olduqları dövrdə, 1027-ci ildə Xudafərin körpüsünü inşa etdirən Şəddadilər Azərbaycanın şimalı ilə cənubunu birləşdirmişdir. Bu körpü şimal və cənub arasında iqtisadi və mədəni əlaqələr baxımından mühüm rol oynamışdır.

Şəddadilər Azərbaycanın şimal-qərbində mövcud olan Tiflis əmirliyi, xüsusilə Əmir Əbul-Fəzl Cəfər ibn Əli ilə sıx əlaqələr qurmuşlar. Onlar bölgəyə gələn oğuz türklərinin yardımı ilə Azərbaycanın şimal-qərb torpaqlarını işğal etməyə çalışan Bizans qüvvələrinə və ermənilərə qarşı birlikdə müqavimət göstərərək onları məğlub etmişlər. Şəddadilərin güclənməsindən ehtiyat edən IV Baqrat onlara qarşı Alanlarla ittifaq qurmuşdur. Nəticədə 1062-ci ildə Dəryal

keçidindən keçən Alanlar Azərbaycana daxil olmuşlar. Bu çətin dövrdə Şəddadilər bölgəyə yeni gələn Səlcuq türklərinin dəstəyi ilə həm gürcülərə, həm ermənilərə, həm də Bizansa qarşı mübarizə aparmışdır (Əliyarlı, 1996). Şəddadilərlə Tiflis əmirliyi arasında mövcud olan dostluq əlaqələri haqqında məlumatlar Qətran Təbrizinin şeirlərində də öz əksini tapmaqdadır (Şərifli, 2015). Bu dostluq əlaqələri nəticəsində 1037-ci ildə Tiflis şəhərini işğal etmək istəyən Abxaz hökmdarı məğlubiyyətlə geri çəkilmişdir.

**Nəticə**

Biz bu məqalədə Borçalı bölgəsinin İslamdan əvvəlki siyasi vəziyyətini, İslamdan sonra isə türk-İslam torpaqlarına çevrilməsini və türk fəthləri ilə əlaqəli xronoloji tarixini araşdırmağa çalışmışıq. Borçalı bölgəsinin tarixini araşdırdıqda burada türklərin qədimdən yaşadıqları aydın olur. Bu bölgəyə axın edən hun, bulqar, xəzər, qıpçaq və peçeneq kimi türk tayfaları, boranı ta qədimdən (e.ə. IV əsr) türk yurdlarından birinə çevirmişlər. X əsrdən başlayaraq oğuz türkləri Cənubi Qafqaza axınlar etməyə başlamış, XI əsrdə isə Səlcuq türklərinin Cənubi Qafqazı ələ keçirməsi ilə çoxlu sayda oğuz türkləri Borçalıya köç edərək burada məskunlaşmışdır. Səlcuq türklərinin Cənubi Qafqazı tutması və oğuzların bu bölgədə yerləşməsi ilə Borçalı müsəlman-türk məmləkətlərindən birinə çevrilmişdir. Borçalı Azərbaycanın tarixi torpağı olduğu üçün, burada cərəyan edən tarixi proseslər Azərbaycanda baş verən tarixi proseslərlə paralellik təşkil edir. Tədqiqat prosesində aşağıdakı elmi yeniliklər əldə olunmuşdur:

***Borçalı bölgəsinin türk tarixində xüsusi yerinin vurğulanması** Məqalədə Borçalı bölgəsinin yalnız coğrafi deyil, etno-siyasi və mədəni baxımdan da Türk dünyasının mühüm bir hissəsi olduğu elmi əsaslarla göstərilir. Bu yanaşma, bölgənin tarixini yalnız yerli yox, ümumtürk kontekstində dəyərləndirmək baxımından yenilikdir.

*Səyyah və arxiv mənbələrinin qarşılaşdırılması Osmanlı arxiv sənədləri və Avropa səyyahlarının qeydləri müqayisə edilərək Borçalı əhalisinin etnik və dini kimliyi haqqında obyektiv baxış təqdim olunur. Eyni zamanda bu bölgənin tarixi-siyasi coğrafiyası da təhlil edilir.

***Türk tayfalarının Borçalıya mərhələli yerləşmə prosesi***

Məqalədə hun, bulqar, xəzər, peçeneq, qıpçaq, oğuz və səlcuq türklərinin fərqli dövrlərdə və müxtəlif etno-siyasi səbəblərlə bölgəyə daxil olması və məskunlaşması ardıcıl şəkildə izah edilir. Bu yanaşma, etnik tarixlə siyasi hadisələrin sinxronizasiyası baxımından yenilik daşıyır.

***Borçalıda islamlaşma prosesinin erkən dövrlərdə başlamasının vurğulanması***

VII əsrdən başlayan İslam fəthləri nəticəsində Borçalıda İslamın yayılması və IX–X əsrlərdə Sacilər dövlətinin bölgədə təsirinin olması faktı, regionun islam tarixindəki rolunu ön

plana çıxarır. Bu isə bölgənin yalnız etnik deyil, dini tarix baxımından da strateji əhəmiyyətini göstərir.

***Qıpçaqların gürcülər tərəfindən köçürülməsi və bölgənin türkləşməsinə təsiri***

Gürcü çarlarının Səlcuqlara qarşı müqavimət üçün Qıpçaqları bölgəyə gətirməsi və bu halın sonradan əks təsir verərək Borçalı bölgəsinin türkləşməsinə xidmət etməsi – bu paradoksal yanaşma elmi baxımdan maraqlı və diqqətəlayiqdir.

***Borçalı ilə Azərbaycan arasında tarixi-siyasi bütövlük ideyasının müdafiəsi***

Borçalının tarix boyu Azərbaycanın ayrılmaz hissəsi olması fikri, yalnız siyasi deyil, etno-mədəni və tarixi əsaslarla sübut edilir. Bu yanaşma, bölgənin tarixini müasir milli kimlik və geosiyasi anlayışlarla əlaqələndirmək baxımından yenidir. Türklərin bu torpaqlara X əsrdən sonra gəldiyi iddia edilsə də, mənbələr sübut edir ki, onların Borçalıda mövcudluğu e.ə. IV əsrə qədər uzanır. Cənubi Qafqaza gələn türklər bu torpaqlara Borçalı adını verərək, buranı türk yurdu kimi qeyd etmişlər. XI əsrdə müsəlman türklər bölgədə intensiv şəkildə məskunlaşana qədər Borçalıda hunlar, bulqarlar, savarlar və xəzərlər kimi türk boyları məskunlaşaraq bölgədə özlərinə məxsus iz qoymuşlar. VII əsrdə Cənubi Qafqazın qapılarına çatan İslam fəthləri qısa zaman kəsiyində bu bölgəni də nəzarətə götürmüşdür. VII əsrdən başlayaraq bütün Qafqazda olduğu kimi Borçalıda da İslam sürətlə yayılmağa başlamışdır. Hətta IX–X əsrlərdə Cənubi Qafqazda hökmranlıq edən ilk müsəlman türk dövləti olan Sacilər dövləti Borçalıya xüsusi önəm vermiş, bu torpaqları daim öz tabeliyində saxlamağa çalışmış və müəyyən dərəcədə buna nail olmuşdur.

## Ədəbiyyat

Ağayev, R. (2014). Ərəb mənbələri Azərbaycan Sacilər dövləti və onun hüdudları haqqında. *Tarix və onun problemləri*, *3*, 294–303. (in Azerbaijani).

Ağayev, R. (2017). *Ərəb Xilafəti dövründə Azərbaycanın əhalisi*. Turxan NPB. (in Azerbaijani).

Albayrak, R. (2004). *Toponim Teknikleri ve Kafkasya – Borçalı yer adları*. Elektronik Basımevi. (in Turkish).

Artamanov, M. (2004). *Hazar tarihi* (A. Batur, Çev.). Selenge. (in Turkish; orig. Russian).

Askerov, G. (2020). *Borçalı bölgesi (VII–XX yüzyıllar)*. Bursa Uludağ Üniversitesi. (in Turkish).

al-Kūfī, Abū Muḥammad Aḥmad ibn Aʿtham. (1991). *Kitāb al-Futūḥ* (Vols. I–II). Dār al-Aḍwāʾ. (in Arabic).

Bartold, V. (1990). *Moğol istilasına kadar Türkistan*. Türk Tarih Kurumu Basımevi. (in Turkish; orig. Russian).

al-Balādhurī, Abū al-Ḥasan Aḥmad ibn Yaḥyā ibn Jābir. (1866). *Futūḥ al-buldān*. E. J. Brill. (in Arabic).

al-Balādhurī, Abū al-Ḥasan Aḥmad ibn Yaḥyā ibn Jābir. (1956). *Futūḥ al-buldān*. Bī-Maṭbaʿat al-Mawsūʿāt. (in Arabic).

al-Balādhurī, Abū al-Ḥasan Aḥmad ibn Yaḥyā ibn Jābir. (1987). *Futūḥ al-buldān*. Dār al-Kutub al-ʿIlmiyya. (in Arabic).

al-Balādhurī, Abū al-Ḥasan Aḥmad ibn Yaḥyā ibn Jābir. (2002). *Futūḥ al-buldān* (M. Fayda, Çev.). Türk Tarihi Basımevi. (in Turkish; orig. Arabic).

Bünyadov, Z. (1989). *Azərbaycan VII–IX əsrlərdə*. Elm. (in Azerbaijani).

Bünyadov, Z. (2007). *Azərbaycan VII–IX əsrlərdə*. Şərq–Qərb. (in Azerbaijani).

Cəlaloğlu, E. (2010). *Göy ərləri, yaxud Borçalı türklərinin etnik tarixinə səyahət*. Vətən. (in Azerbaijani).

Qudāma ibn Jaʿfar, Abū al-Farağ. (1981). *Kitāb al-kharāj*. Dār al-Rashīd. (in Arabic)

Əliyarlı, S. (1996). *Azərbaycan tarixi*. Azərnəşr. (in Azerbaijani).

Golden, P. (2006). *Hazar çalışmaları* (E. Çağrı, Çev.). Selenge. (in Turkish; orig. English).

Hasan, İ. (1987). *İslam tarihi*. Kayıhan. (in Turkish).

Ibn Ḥawqal, Abū al-Qāsim al-Naṣībī. (1967). *Ṣūrat al-arḍ*. Brill. (in Arabic).

İpek, A. (2016). *İlk İslami dönemde Gürcistan*. Zafer Medya. (in Turkish).

al-Iṣṭakhrī, Abū Isḥāq Ibrāhīm ibn Muḥammad al-Fārisī. (1381). *al-Masālik wa-l-mamālik*. (Yayınevi belirtilmemiş). (in Arabic/Persian).

Kevin, A. (2005). *Bir Türk İmparatorluğu Hazar Yahudileri* (İ. Tulaclı, Çev.). Noktakitap. (in Turkish; orig. English).

Kırzıoğlu, F. (1972). Karapapaklar: Borçalı – Kazak Uruğu'nun Kür – Araz boylarındaki 1800 yılına bir bakış. *Atatürk Üniversitesi Basımevi*, *1*, 1–16. (in Turkish).

Kırzıoğlu, F. (1992). *Yukarı Kür ve Çoruk boylarında Kıpçaklar*. Türk Tarih Kurumu Basımevi. (in Turkish).

Kırzıoğlu, F. (1994). *Alban tarihi üzerine*. Türk Tarih Kurumu Basımevi. (in Turkish).

Mahmudov, Y. (2007). *Azərbaycan tarixi* (Cilt II–III). Elm. (in Azerbaijani).

Muella, U. (2002). *Hazar Hakanlığı*. Yeni Türkiye. (in Turkish).

Mustafa, R. (2019). *Tiflis əmirliyi*. Turxan NPB. (in Azerbaijani).

Paşazadə, A. (1991). *Qafqazda İslam*. Azərnəşr. (in Azerbaijani).

Seyidov, M. (1983). *Azərbaycan mifik təfəkkürünün qaynaqları*. Yazıçı. (in Azerbaijani).

Şərifli, M. (1995). *Paralanmış Borçalı*. Azərbaycan Dövlət Nəşriyyatı. (in Azerbaijani).

Şərifli, M. (1997). *Alın yazımız*. Dayaq. (in Azerbaijani).

Şərifli, M. (2006). *Gürcüstan azərbaycanlıları*. (Yayın evi yok). (in Azerbaijani).

Şərifli, M. (2015). *IX əsrin ikinci yarısı – XI əsrlərdə Azərbaycan feodal dövlətləri*. Turxan. (in Azerbaijani).

Şərifov, Ş. (2016). Ərəblərin xəlifə Ömər dövründə Azərbaycana edilən hərbi yürüşləri. *Geostrategiya: Aylıq ictimai-siyasi, elmi-populyar jurnal, 05*(35), sentyabr–oktyabr. (in Azerbaijani).

Şərifov, Ş. (2017). *İslam tarixi*. Elm və Təhsil. (in Azerbaijani).

Şərifov, Ş. (2019). Ərəb mənbələrində Arran şəhəri Tiflis. *Akademik Tarih ve Düşünce Dergisi, 6*(2), 1097–1111. (in Azerbaijani/Turkish).

Şərifov, Ş. (2022). *Erkən xilafət dövründə Azərbaycanda ictimai-siyasi və mədəni həyat*. Birol Group MMC. (in Azerbaijani).

al-Ṭabarī, Abū Jaʿfar Muḥammad ibn Jarīr. (1970). *Tārīkh al-umam wa-l-mulūk*. Dār al-Maʿārif. (in Arabic).

al-Ṭabarī, Abū Jaʿfar Muḥammad ibn Jarīr. (t.y.). *Tārīkh al-umam wa-l-mulūk* (12 cüz). Maṭbaʿat al-Ḥusainiyya. (in Arabic).

Vəlixanlı, N. (1993). *Ərəb Xilafəti və Azərbaycan*. Azərnəşr. (in Azerbaijani).

Yāqūt al-Ḥamawī, Shihāb al-Dīn ibn ʿAbd Allāh al-Rūmī. (1965). *Muʿjam al-buldān*. Maktabat al-Asadī. (in Arabic/Persian).

al-Yaʿqūbī, Aḥmad ibn Abī Yaʿqūb Isḥāq ibn Wāḍiḥ. (t.y.). *Tārīkh al-Yaʿqūbī*. Dār al-Ṣādir. (in Arabic).

al-Qazwīnī, Zakarīyyāʾ. (t.y.). *Āthār al-bilād*. Dār al-Ṣādir. (in Arabic).